www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-02 (1785) 31 yanvar 2024-cü il



## Beynəlxalq olimpiadanın qalibi olan tələbələrimizlə görüş keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Belə nüfuzlu yarışda qalib olmaq digər tələbələrimizi də böyük uğurlara həvəsləndirəcək**

səh. 2

## Əczaçılıq sektorunun rəqəmsallaşdırılmasına dair layihə təqdim olunub

səh. 2

## Bakıda “22-ci Təməl Artroplastika Kursu” təşkil edilib

səh. 5

## Peyvənd olunmamış insan qızılca qarşısında müdafiəsizdir

səh. 6



## 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb

1990-cı ilin 20 yanvarı təkcə ümummilli hüzn deyil, həm də qürur günümüzdür

səh. 3

## Kim oxusa dərsini, çəkməz imtahan dərdini

*Azərbaycan Tibb Universitetində davam edən qış imtahan sessiyasından həm müəllimlər, həm də tələbələr razıdır*

səh. 4

## Bəşəriyyətin qorxduğu xəstəlik: cüzəmin çarəsi hələ də tapılmayıb

*ATU-nun professoru Respublika Cüzəm Xəstəxanasında xəstələrlə çay içdiyini və yoluxmadığını deyir*

səh. 5



## ATU alimlərinin elmi fəaliyyəti AMEA-nın illik hesabatında

Beynəlxalq patentlər almış ixtiralar böyük maraqla qarşılanıb

səh. 3

# Əczaçılıq sektorunun rəqəmsallaşdırılmasına dair layihə təqdim olunub



**Səhiyyə Nazirliyi milli səhiyyə sistemində müasir dövrün tələbi və innovativ düşüncə məhsulu olan Rəqəmsal Səhiyyə ekosisteminin tətbiqi ilə bağlı tədbirləri davam etdirir. Bununla əlaqədar, nazirlik yanvarın 16-da "Səhiyyə sisteminin transformasiyası çərçivəsində əczaçılıq sektorunun rəqəmsallaşdırılması" layihəsinin təqdimatını keçirib.**

Tədbirdə Azərbaycan Respublikasının Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Hərbi-texniki təminat məsələləri şöbəsinin müdiri Andrey Sipilin, Milli Məclisin Səhiyyə Komitəsinin üzvləri, həmçinin Səhiyyə Nazirliyi və nazirliyin tabeliyində olan qurumların, İqtisadiyyat, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN" Xidmət), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB), Əczaçılar Klubu İctimai Birliyinin, iri farmakologiya şəbəkələrinin, özəl klinikaların və mərkəzi rayon xəstəxanaların rəhbər şəxsləri iştirak ediblər. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli də tədbirdə iştirak edib.

Rəqəmsal Səhiyyə ekosisteminin başlıca məqsədi vətəndaşlara keyfiyyətli, təhlükəsiz, etibarlı səhiyyə xidmətlərinə əlçatanlığın təmin edilməsidir. Rəqəmsal Səhiyyənin inkişafı vətəndaşın sağlamlıq tarixçəsi ilə bağlı müfəssəl məlumatları, o cümlədən xəstəliklər və müasir müalicə üsullarını vahid rəqəmsal platforma üzərində birləşdirərək bütün tibb müəssisələri üçün onlayn formatda əlçatanlığı təmin edəcək.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda sosialyönümlü siyasətin aparılmasını giriş sözündə vurğulayan səhiyyə naziri Teymur Musayev bildirib: "Dövlət başçısının rəhbərlik etdiyi son 20 il ərzində rəqəmsal hökumətə keçidin sürətləndirilməsi, iqtisadiyyatın diversifikasiyası üzrə ardıcıl tədbirlərin görülməsi ölkəmizin regionda aparıcı söz sahibi kimi tanınmasını şərtləndirib".

Nazir rəqəmsal texnologiyaların tibbi xidmət təminatçılarına və pasiyentlərə məlumatları əlçatan etməklə, ortaq qərar verməkdə həkim-pasiyent münasibətlərini fərqli səviyyəyə qaldırdığını diqqətə çatdırıb: "2023-cü ildən səhiyyənin rəqəmsal transformasiyası layihəsi çərçivəsində Səhiyyə Nazirliyi tərəfindən "Elektron epikriz" informasiya sistemi tətbiq edilir. Elektron epikriz sistemi vətəndaşların xəstəlik tarixlərindən çıxarışların vahid reyestrinin yaradılmasını təmin etməklə fərdin sağlamlıq məlumatlarının axtarışına və standart formada sənədlərin hazırlanmasına imkan yaradıb. Bu gün Səhiyyə Nazirliyi tərəfindən hazırlanmış Elektron resept sisteminin və mobil tətbiqin, eləcə də "Təqib və izləmə sistemi"nin təqdimatı keçirilir. Hər iki informasiya sistemi əczaçılıq sektorunun rəqəmsallaşdırılması tədbirləri çərçivəsində "Dərman vasitələri haqqında Azərbaycan Respublikası Qanunu"na edilən əlavə və dəyişikliklərə uyğun olaraq hazırlanıb".

Tədbir çərçivəsində rəqəmsal səhiyyə və "E-resept"ə dair videoçarxlar nümayiş olunub. Elektron resept sistemi həkim, pasiyent və əczaçılar üçün bir platforma üzərindən reseptlərin idarə olunması məqsədilə hazırlanan bir sistemdir. Eyni zamanda, E-resept vətəndaşların tibbi məlumatlarına əlçatanlığını, tibb mütəxəssislərinin daha effektiv xidmət göstərməsini təmin edir.

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında rentgenoloq-radioloq, tibb elmləri doktoru, professor Bahadur Baxşıyevin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. "Qaranlıqlara işıq tutan ömür" adlı elmi-praktik konfransda tanınmış alim B.Baxşıyevin Azərbaycanda radiologiya elminin inkişafındakı xidmətlərindən söz açılıb.**

# Qaranlıqlara işıq tutan ömür

## Professor Bahadur Baxşıyevin 90 illiyinə həsr olunmuş elmi konfrans keçirilib






Açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetdə belə yubiley konfranslarının təşkilinin artıq ənənə halını aldığını vurğulayıb. Bu tədbirlərin əsas məqsədinin görkəmli alim və professorların anılması ilə yanaşı, gənc həkimlərə həmin elm fədailərinin həyatını, keçdiyi yolu xatırlatmaqdan ibarət olduğunu qeyd edib: "Uzun illər ATU-nun Radiologiya və rentgenologiya kafedrasının müdiri olmuş Bahadur Baxşıyevin Azərbaycanda rentgenoloq-həkim ordusunun yetişməsində və bu sahənin ən böyük nailiyyətlərinin ölkəmizdə tətbiq edilməsində müstəsna xidmətləri olub. Onun müəllifliyi ilə ana dilimizdə ilk dərsliklər yazılıb, rəhbərliyi altında doktorluq və namizədlik dissertasiyaları müdafiə olunub. B.Baxşıyev öz namizədlik və doktorluq dissertasiyalarını Moskvada Rentgen və Radiologiya İnstitutunda vaxtından əvvəl müdafiə edib və ölkəmizdə bu sahənin öndərlərindən biri olub. Güman edirəm ki, professorun əziz xatirəsinə həsr olunan bugünkü konfrans nəinki radiologiya sahəsi, bu sahə ilə bağlı olan digər mütəxəssislər üçün də faydalı olacaq". Rektor G.Gəraybəyli hər kəsin sevimlisi olan Bahadur Baxşıyevin universitetin həm ictimai həyatında, həm də elmi fəaliyyətində silinməz iz qoyduğunu bildirib.

ATU-nun Şüa diaqnostikası və terapiya kafedrasının müdiri, professor Məlahət Sultanova müəllimi Bahadur Baxşıyevin həyatını "Qaranlıqlara işıq tutan ömür" ifadəsinin çox aydın şəkildə təsvir etdiyini vurğulayıb. O, Azərbaycanda rentgenologiya məktəbinin yaradıcısı olan, peşəkar mütəxəssislər yetişdirən B.Baxşıyevin həyatı və elmi fəaliyyəti barədə ətraflı məlumat verib. Onun 300 elmi əsərin, 15 ixtira və səmərələşdirici təklifin, 13 monoqrafiya və dərsliyin müəllifi olduğunu, 1976-cı ildə ilk dəfə Azərbaycan dilində rentgenologiya və radiologiya üzrə dərslik yazdığını qeyd edib. B.Baxşıyev 1962-ci ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə edib və tibb elmləri doktoru alimlik dərəcəsinə layiq görülüb. O, rentgenologiya və radiologiya sahəsində tibb elmlər doktoru adına layiq görülən ilk azərbaycanlı alimdir.

M.Sultanova görkəmli alim və bacarıqlı pedaqoq B.Baxşıyevin səriştəli təşkilatçılıq qabiliyyətinə malik, qayğıkeş və bacarıqlı dekan kimi tələbələri, həmkarları arasında dərin hörmət və rəğbət qazandığını da bildirib.

Professora həsr olunmuş "Təbabətin Bahaduru" filminin nümayişindən sonra onu yaxından tanıyanlar, tələbələri çıxış edərək xatirələrini bölüşüblər.

Konfrans öz işini sessiyalarla davam edib, kliniki məqamlarda radioloji müayinələrin vacibliyi, radiodiaqnostik müayinələrə həsr olunmuş məruzələr və çıxışlar baş tutub. Sonda invaziv radioloqlar öz təcrübələrini bölüşüblər.

Qeyd edək ki, tədbir Səhiyyə Nazirliyi tərəfindən 7 kredit balı ilə akkreditasiya olunub.

# Beynəlxalq olimpiadanın qalibi olan tələbələrimizlə görüş keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Belə nüfuzlu yarışda qalib olmaq digər tələbələrimizi də böyük uğurlara həvəsləndirəcək



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli IV Beynəlxalq "Səmərqənd-2020" olimpiadasında uğurla çıxış edən komanda üzvləri ilə görüşüb.**

Dörd mindən çox iştirakçısı olan beynəlxalq yarışmada qələbə qazanan ATU tələbələrini təbrik edən rektor G.Gəraybəyli, bu hadisəni böyük nailiyyət kimi dəyərləndirib. Rektor bildirib ki, belə nüfuzlu yarışda qalib olmaq digər tələbələrimizi də böyük uğurlara imza atmağa həvəsləndirəcək. O hər kəsə fəxarət hissi yaşadan, ATU-nun adını beynəlxalq arenada ləyaqətlə təmsil edən tələbə və müəllimlərə təşəkkür edib, onlara gələcəkdə yeni uğurlar arzulayıb.

Qeyd edək ki, ötən ilin dekabrında Səmərqənddə keçirilən Tibb Universiteti Tələbələrinin IV Beynəlxalq Olimpiadasının nəticəsinə əsasən, ATU-nun tələbələri müxtəlif kateqoriyalar üzrə ilk yerləri tutublar. II Müalicə-profilaktika fakültəsinin tələbəsi Gülgün Məmmədli I, Stomatologiya fakültəsinin tələbələri Süsən Yaqubova və Emel Mahalova II, I Müalicə-profilaktika fakültəsinin tələbəsi Tamara Mahalova isə III yerə layiq görülüblər.

Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Müşfiq Həsənov da iştirak ediblər.

**Məlum olduğu kimi, Azərbaycan Tibb Universiteti əcnəbi tələbələrin sayına görə ölkə üzrə yenə birincidir. ATU-nun Əcnəbi tələbələrlə iş üzrə dekanı, dosent Natiq Bayramov universitetin hazırlıq kursuna, eləcə də I kursa qəbulun ötən il iyul ayının 1-ci həftəsindən başladığını bildirib.**

# 510 nəfər əcnəbi ATU-nun hazırlıq kursunda dərslərə başlayıb



Onun sözlərinə görə, sentyabrın 15-də I kurslara qəbul tamamlansa da, hazırlıq şöbəsinə qəbul dekabrın 25-ə qədər davam edib. Belə ki, 609 nəfər əcnəbi vətəndaş skayp vasitəsilə müsabiqədən keçərək universitetimizin hazırlıq şöbəsinə qəbul olunub. 609 nəfərdən 510 nəfər artıq sənədlərini dekanlığa təqdim edərək təhsil haqlarını ödəyib, eyni zamanda sağlamlıq sığortası məsələsini həll edib. Yanvar ayının 15-dən dərslərə start verilib. Hazırlıq şöbəsində ilkin olaraq mart ayına qədər Azərbaycan dili və ingilis dili fənləri tədris ediləcək. Bundan sonra isə digər fənlər - biologiya, kimya və fizika əlavə olunacaq. 6 ay müddətində kursu bitirən dinləyicilər üçün qəbul imtahanı keçiriləcək. Bu imtahandan müvəffəq qiymət alanlar I kurs tələbəsi hesab olunacaqlar.

**Azərbaycan Tibb Universitetində 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**

# 20 Yanvar faciəsi qurbanlarının anım tədbiri keçirilib

## 1990-cı ilin 20 yanvarı təkcə ümummilli hüzn deyil, həm də qürur günümüzdür

Toplantını giriş nitqi ilə açan ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev universitetimizdə 20 Yanvar faciəsinin təkcə ümummilli hüzn günü kimi deyil, həm də bir qürur günü kimi qeyd edildiyini vurğulayıb. Hələ 20 Yanvar faciəsindən əvvəl Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə aparması haqqında xəbərlərin Moskvanı narahat etdiyini xatırladan S.Əliyev bildirib ki, o vaxta qədər Qazaxıstanda, Gürcüstanda və Pribaltikada lokal qırğınlar törədilmişdi: "Ona görə də xalqımız təsəvvür etməzdi ki, bu hadisələrdən sonra Azərbaycanda böyük miqyaslı qırğınlara rəvac verilsin. Çox təəssüf ki, həmin dövrdə respublikamızda bir hakimiyyət boşluğu da vardı. Rəhbərliyi təmsil edən şəxslər həddindən artıq qətiyyətsizlik göstərir, sovet qoşunlarının Bakı ətrafında yerləşdirilməsinə göz yumurdular və yaxud çıxış yolu tapmaq iqtidarında deyildilər. Eyni zamanda yüksək çinli sovet hərbçilərinin, məmurlarının Azərbaycanda ciddi fəaliyyətə başlamasının qarşısını ala bilmirdilər".

Ancaq bütün tarixi dövrlərdə Azərbaycan xalqının öz qürurunu, mətinliyini qoruduğunu söyləyən S.Əliyev vurğulayıb ki, nə qədər faciələrlə üzləşsək də, böyük bir imperiya nə dilimizi, nə mənəviyyatımızı, nə də adət-ənənələrimizi əlimizdən almağı bacarıb. Məhz bu qürurun, mətinliyin nəticəsi idi ki, xalqımızın cəsur övladları imperiyanın silahlı qüvvələri qarşısında mərdliklə dayandılar, ölümün gözünə dik baxdılar.

Sözünə davam edən prorektor 20 Yanvar faciəsinin baş vermə səbəblərini və onun unudulmaz dəhşətlərini bir daha yada salaraq, həmin gün Azərbaycan xalqının cəsarətli övladlarının göstərdiyi şücaətdən qürurla söz açıb: "Həmin hadisələrdən bizi 34 il ayırsa da, o dəhşətli günləri unutmaq mümkün deyil. Çünki 20 Yanvar bizim tariximizə faciə ilə yanaşı, həm də igidlik, qəhrəmanlıq səhifəsi kimi daxil olub. Xalqımız öz canı-qanı bahasına azadlığına qovuşub".



Professor S.Əliyev bu qanlı hadisələrin Azərbaycan xalqına qarşı həyata keçirilən terror aktı və insanlığa qarşı ən ağır cinayətlərdən biri olduğunu deyib: "Ümummilli Lider Heydər Əliyevin sayəsində dünya bu faciədən xəbər tuta bildi. Ulu Öndər həyatını riskə ataraq ailə üzvləri ilə birgə Moskvada keçirdiyi mətbuat konfransında dünyanın nüfuzlu xəbər agentliklərinə bu haqda məlumat verdi".

Çıxışında qanlı 20 Yanvar hadisələri zamanı Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin, tələbələrinin, xüsusilə cərrahların fədakarlığına da toxunan S.Əliyev, gənclərin vətənpərvərlik ruhunda yetişməsində müəllimlərimizin xüsusi rolundan danışıb. O, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında gənclərimizin şanlı tarix yazdığını deyib.

Bundan sonra 20 Yanvar faciəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Anım tədbirində çıxış edən I Cərrahi xəstəliklər kafedrasının professoru Fariz Camalov şahidi olduğu hadisələrlə bağlı təəssüratlarını bölüşüb. O, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verildiyini xatırladıb və bu qanlı faciənin heç zaman unudulmayacağını, şəhidlərimizin xatirəsini yaşatmağın hər birimiz üçün vacib missiya olduğunu söyləyib.

Daha sonra II Müalicə-profilaktika fakültəsinin I kurs tələbəsi Aytac Şükürlü və Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən Teatr Klubunun nümayəndəsi Şəlalə Quliyeva çıxış edərək, bildiriblər ki, bu gün biz Vətənimizin havasından, suyundan, daşından, torpağından didərgin düşməmişiksə, ilk növbədə şəhidlərimizə borcluyuq.

Tələbələrin ifasında səslənən şeirlər də tədbir iştirakçılarına təsirli anlar yaşadıb.

# ATU alimlərinin elmi fəaliyyəti AMEA-nın illik hesabatında

## Beynəlxalq patentlər almış ixtiralar böyük maraqla qarşılanıb



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin və Lənkəran Regional Elmi Mərkəzinin 2023-cü il üzrə illik hesabatına həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, eləcə də Səhiyyə, Kənd Təsərrüfatı, Elm və Təhsil nazirliklərinin, Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərovun rəhbərliyi ilə universitetimizin nümayəndə heyəti, bir sıra tibbi müəssisələrin direktorları, aidiyyəti şəxslər və KİV nümayəndələri iştirak ediblər.

Əvvəlcə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əhatə etdiyi institutlarda, həmçinin ali təhsil və tibb müəssisələrində 2023-cü ildə əldə olunan mühüm elmi nəticələri əks etdirən sərgiyə baxış keçirilib. Sərgidə ATU-nun alimləri təqdimatlar ediblər.

Əczaçılıq toksikologiyası və kimya kafedrasının müdiri, professor Eldar Qarayev diqqətə çatdırıb ki, apardıqları elmi-tədqiqat işlərinə ümumilikdə 10 patent alınıb: "Sonuncu patentimiz Avrasiya patentidir (Patent N 042306, Eurasian Patent Organization, 02.02.2023). Bu tədqiqat işimiz Azərbaycanda çay emalı müəssisələrində yaranan tullantılardan L-teanin və kofeinin ayrılıqda təmiz şəkildə alınmasına həsr olunub. Tədqiqat işində etanol və su kimi qeyri-toksik həlledicilərdən istifadə etməklə zehni fəaliyyəti yaxşılaşdıran bioloji fəal maddələr alınması yolları göstərilir. Düşünürük ki, gələcəkdə respublikamızda yaranacaq əczaçılıq istehsalı müəssisələri bu elmi tədqiqatımızdan bəhrələnəcək".

ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Elmi Tədqiqat Mərkəzinin Elektron mikroskopiya şöbəsinin böyük elmi işçisi, dosent Fuad Rzayev və Bakı Dövlət Universitetinin Fizika Problemləri İnstitutunun Bioloji sistemlər fizikası laboratoriyasının aparıcı fizik-mühəndisi Rəşid Əliyevin birgə ixtirası olan "Elektron mikroskopda obyektləri fiksasiya etmək üçün istifadə olunan vakuum aparatı" da iştirakçılar tərəfindən maraqla qarşılanıb. Qeyd edək ki, cihaz Avrasiya Patent Təşkilatının qərarına əsasən, 2023-cü ildə beynəlxalq patentlə təltif edilib. Aparatın quruluşu, iş rejimi, texniki göstəriciləri və s. parametrlərlə bağlı bütün suallar müəlliflər tərəfindən cavablandırılıb.

Ötən il ərzində əldə olunmuş mühüm elmi nəticələrə ATU-nun Əczaçılıq kimyası kafedrasında aparılan elmi tədqiqatlar da daxil edilib. Belə ki, kafedra 2023-cü ildə əsas elmi nəticələrə dair 2 Avrasiya Patenti alıb. Birinci mühüm elmi nəticə 68 Galium-Fapi 46 radiofarmasevtik maddənin sintezi və yeni analiz üsuluna dairdir. Preparat Milli Onkologiya İnstitutunun Nüvə təbabəti Mərkəzində Pozitron Tomoqrafiyada (PET) radiomarker kimi istifadə edilir. İkinci mühüm elmi nəticə respublika florasında geniş yayılan Medicago-Qayonca cinsinə aid növdən yüksək antioksidant fəallığa malik bioaktiv maddələr kompleksinin alınması və tədqiqinə aiddir.

Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov və dissertant Razim Şükürov elmi nəticələr haqqında məlumat verib və sualları cavablandırıblar. Nəticələri yüksək qiymətləndirən AMEA-nın prezidenti gələcəkdə akademiyanın institutları ilə birgə elmi tədqiqatların aparılmasının məqsədəuyğunluğunu qeyd edib.

Sevindirici haldır ki, 2023-cü il üzrə illik hesabatda ATU-nun Tədris Cərrahiyyə Klinikasının professoru, Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri Vaqif Qələndərin də fəaliyyətinə yer ayrılıb. Onun ABŞ-da yüksək indeksli jurnallarda dərc olunmuş, dərsliyə salınaraq tədris olunan elmi yenilik və ixtiralarının Azərbaycan Tibb Universiteti və bütövlükdə ölkəmizin tibb elmi adına qürurverici olduğu vurğulanıb.

**ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası Rezidentura və Magistratura şöbəsi ilə növbəti birgə seminar keçirib.**

# Rezidentin malyariya ilə bağlı məruzəsi dinlənilib



Kafedranın professoru Rafiq Çobanov ölkəmizdə malyariyanın tarixinin çox qədim zamanlara təsadüf etdiyini, Makedoniyalı İsgəndərin dövrünə gedib çıxdığını söyləyib: "XX əsrdə isə respublikamızda 5 epidemioloji vəziyyət qeydə alınıb. Hətta son illərdə adətən yay mövsümündə ölkəmizdə malyariya ilə bağlı ciddi problemlər yaşanır. Müasir dövrdə malyariya dünyanın 107 ölkəsində yayılıb ki, onların da yarıdan çoxu Afrikada, Saxara səhrasından cənubda yerləşir. Yer kürəsinin 3 milyarddan artıq əhalisi yoluxma riski təhlükəsi altındadır, onlardan 300-500 milyonu isə hər il bu təhlükəli xəstəliklə xəstələnir. Malyariyadan hər il 1,5-2,7 milyon şəxs həlak olur".

Seminarda çıxış edən Epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev vurğulayıb ki, malyariyanın törədiciləri meymunlarda, gəmiricilərdə və digər heyvanlarda aşkar olunur: "İnsanın təbii şəraitdə meymunlarda parazitlik edən plazmodiumların bəzi növləri ilə yoluxmasının yalnız bir neçə halı təsvir edilib. Bu hallarda xəstəlik yüngül keçib və tezliklə sağalıb. İstənilən yaşda olan şəxslər onlarda xəstəliyin kəskin formaları, residivləri və ya parazitgəzdirmə halları varsa, malyariya zamanı törədicinin infeksiya mənbəyi rolunu yerinə yetirə bilərlər. İsti iqlimli ölkələrdə malyariya ocaqlarında uşaqlar epidemioloji baxımdan daha təhlükəlidirlər".

Məruzəçi rezident Vüsalə Sərxanlı bu xəstəliyin epidemiologiyası, etiologiyası, patogenezi, immuniteti, klinik əlamətləri, diaqnostika və profilaktikası haqqında ətraflı məlumat verib. O bildirib ki, malyariya qan parazitləri plazmodiumlar tərəfindən törədilən, qızdırma tutmaları, hepatosplenomeqaliya, proqressiv inkişaf edən anemiya və residivlərlə gedən kəskin infeksion xəstəlikdir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva və Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva indiyədək keçirilən seminarları yüksək qiymətləndiriblər, bu tədbirlərin rezident və tələbələrin tədris-təcrübəni daha dərindən mənimsəməsi üçün önəmli olduğunu vurğulayıblar.

Vüsalə Sərxanlının elmi rəhbəri, assistent Gülxanım Əliyeva onun çalışqan olduğunu, elmə böyük maraq göstərdiyini söyləyib.

# Kim oxusa dərsini, çəkməz imtahan dərdini

## Azərbaycan Tibb Universitetində davam edən qış imtahan sessiyasından həm müəllimlər, həm də tələbələr razıdır

**Azərbaycan Tibb Universitetində ötən il dekabrın 29-dan etibarən payız semestrinin qış imtahan sessiyasına start verilib. İmtahan prosesini izləmək üçün universitetin İmtahan Mərkəzində olduq.**



Filologiya üzrə fəlsəfə doktoru, İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova bizə ətraflı məlumat verdi. Bildirdi ki, universitetin Tədris Departamenti tərəfindən tərtib edilmiş plan cədvəlinə uyğun olaraq, dekabrın 29-dan imtahanlara start verilib: "Bu tədris ilindən etibarən qeyri-ixtisas fənləri üzrə aralıq imtahanları ləğv olunub. Ona görə də tələbələr semestr imtahanlarına sıfır balla daxil olurlar. Amma əvvəllər Azərbaycan dili, multikulturalizm, xarici dil, fəlsəfə və digər qeyri-ixtisas fənlərindən 40 bal aralıq qiymətləndirmə ilə imtahanlara daxil olur, əksəriyyəti müvəffəqiyyət qazanırdı. Tələbələrin çoxu qeyri-ixtisas fənlərinə ciddi yanaşmadığı üçün bu il kəsilənlərin olduğunu müşahidə edirik. Qeyri-ixtisas fənlərindən tələbələrə 50 sual düşür və maksimum 100 ballıq şkala ilə qiymətləndirilir. Suallar 50 dəqiqə ərzində cavablandırılmalıdır. Təəssüf ki, kəsilənlər arasında əlaçılara rast gəlinir. Tələbə hiss etməyə başlayıb ki, əgər tədris olunursa, deməli təkcə ixtisas fənlərinə deyil, qeyri-ixtisas fənlərinə də ciddi şəkildə hazırlaşmaq lazımdır. Hesab edirəm ki, qeyri-ixtisas fənləri üzrə aralıq imtahanlarının ləğvi doğru qərardır və gələcəkdə müsbət nəticəsini göstərəcək. Yəni növbəti imtahanlarda tələbələr qeyri-ixtisas fənlərinə də ciddi yanaşacaq, öyrənməyə can atacaqlar".

Ü.Cəfərova imtahan zamanı I-III kurs tələbələrinə nümunəvi testlərdən az mövzu salındığını və əksəriyyətinin gizli suallar olduğunu bildirdi. Ona görə də aşağı kurs tələbələrində ciddi çalışqanlıq hiss olunduğunu və verdikləri imtahanlardan yaxşı nəticələr əldə etdiklərini söylədi: "Əvvəlkilərdən fərqli olaraq, artıq testlərin tərtibində də irəliləyişlər var. Testlər az səhvlə tərtib olunduğundan, imtahanı da rahat şəkildə apara bilirik. Bəzən isə apelyasiya şikayətləri də əsassız olur. Məsələn, bu semestr 30-a yaxın tələbə Anatomiya fənnindən düşmüş sualdan şikayət etdi, hamısı əsassız oldu. Qayda pozuntularına da çox rast gəlinmir".

**Nəzarətçilərin sayı üç dəfə azaldılıb**

İmtahan Nəzarət Qrupunun rəhbəri Pəri İsaqova işlərində yeniliklər edildiyini, bu semestr az tərkibli nəzarət qrupu ilə işlədiklərini diqqətimizə çatdırdı: "Əvvəllər 158 nəzarətçi ilə işləyirdik. Onların da əksəriyyəti ya gəlmir, ya da işlərinə məsuliyyətsiz yanaşır, gec gəlirdilər. Belə hallar istər-istəməz, işimizdə problem yaradırdı. Bu dəfə onların içərisində ən aktiv və işinə məsuliyyətlə yanaşanları seçdik. Artıq aralıq qiymətləndirmədən bu yana 55 fəal nəzarətçi ilə işləyirəm. Onlar vaxtlı-vaxtında imtahanlara gəlir, vəzifələrinə məsuliyyətlə yanaşırlar. Nəticə göz önündədir. Tələbələr də imtahanlarını sakit və intizamlı şəkildə verirlər. İndiyədək ciddi qayda pozuntusuna rast gəlinməyib".

Nəzarətçilərdən İlqar Qacar, Sevinc İbrahimova da imtahanın normal keçdiyini bildirdilər. Yüngül qayda pozuntularına rast gəlindiyini, xəbərdarlıqdan sonra tələbələrin onları aradan qaldırdığını qeyd etdilər.

Digər nəzarətçi Vəfa Həsənova da əvvəlki vaxtlara nisbətən indi imtahan prosesinin daha yaxşı keçdiyini bildirdi: "Əvvəllər tələbələr bir-birindən istifadəyə cəhd edirdilər. İndi belə hallar müşahidə olunmur. Onlar artıq oxumaq məsuliyyətini dərk edirlər".

İmtahan verən tələbələrin də fikirlərini öyrəndik. Zeynəb Əlizadə II Müalicə-profilaktika fakültəsinin 1-ci kursunda oxuyur. İnformatikadan imtahan verib: "Mənim üçün çox uğurlu keçdi. Çünki yaxşı hazırlaşmışdım. Maksimum balı (50 bal) toplaya bildim. Zalda sakitçilikdir. Heç bir kənar müdaxilə yoxdur".

**Oxuyan tələbə müvəffəqiyyət qazanır**

MPF-2-nin 1-ci kurs tələbəsi Lətifə Hacıyeva artıq 2-ci dəfədir Tibb Universitetinin tələbəsi adını daşıyır. 2012-ci ildə Əczaçılıq fakültəsini bitirib: "Amma daxilən bir hiss məni heç vaxt tərk etmirdi. Mənə elə gəlirdi ki, insanları müalicə etsəm, daha çox uğur qazana bilərəm. Ona görə də ciddi şəkildə hazırlaşdım və Müalicə-profilaktika fakültəsinə daxil oldum. İmtahanlar şəffaf şəkildə aparılır, ona görə də oxuyan tələbə müvəffəqiyyət qazanır. Mən də müvəffəqiyyət qazananlardan oldum".



Tələbələrdən Əbdülrəhim Mürsəlov, Emil Xəlilov da yüksək əhval-ruhiyyə ilə zalı tərk edirdilər. Məlum oldu ki, onlar da uğur qazanan tələbələrdəndirlər. Bundan sonrakı imtahanlarda da çətinlik çəkməyəcəklərini diqqətimizə çatdırdılar.



**Tələbələrin şikayət proseduru asanlaşdırılıb**

Universitetin Apellyasiya Komissiyasının sədri, professor Eldar Qarayev son illər komissiyanın fəaliyyətində edilmiş yeniliklərdən söhbət açdı: "İki ildir ki, imtahanlarda baş verən şikayətlərin araşdırılması üçün təşkil edilmiş Apellyasiya Komissiyasında sədri vəzifəsində çalışıram. Bu illər ərzində komissiya tələbələrin çoxsaylı müraciətlərinə baxıb. Hər semestrdə təxminən 5000-5500 müraciət olur. Əsaslı şikayətlər təmin edilir, tələbələrin ballarına əlavə olunur. Obyektivliyi təmin etmək məqsədilə hər gün aparılan hesabatlar elektron poçt vasitəsilə ATU-nun rektoruna, Tədris Departamentinə, İnformasiya texnologiyaları şöbəsinə göndərilir və sonda ümumi hesabat hazırlanır. Komissiya səhər saat 9-dan axşam saat 9-dək fəaliyyət göstərir. Beləliklə, imtahan bitəndən sonra 3 saat ərzində tələbənin müraciət etmək hüququ təmin olunur. Əsasnaməyə görə, tələbə etdiyi şikayətə görə ekspertin verdiyi rəylə razılaşmaya və rektora şikayət edə bilər. Bu zaman yeni komissiya təşkil olunur, şikayətə yenidən baxılır. Bu semestrdə bir neçə tələbə bu hüququndan istifadə edib. Biz şikayət əsasında yenidən komissiya təşkil etdik, şikayətlərdən bəziləri əsaslı hesab olundu".

Professor Eldar Qarayev şikayətlərin sadələşdirilməsi üçün 3 dildə - Azərbaycan, ingilis və rus dillərində ərizə nümunələri tərtib olunduğunu nəzərə çatdırdı: "Eyni zamanda Apellyasiya Komissiyasının telefon nömrəsini də qeyd etmişik ki, tələbələr ərizələrinin nəticələrini zəng etməklə öyrənə bilsinlər. Daha bir yenilik isə həm bizim, həm də tələbələrin vaxt itkisinin qarşısını aldı. Belə ki, əksər hallarda tələbələr narazı qaldığı sualın nömrəsini yadda saxlaya bilmirdi. Nömrəni öyrənmək üçün otaqda kompüter qarşısında böyük növbə yaranırdı.



Rəhbərliklə razılaşma əsasında tətbiq etdiyimiz yeniliyə əsasən, tələbə öz narazılığını kompüter proqramında bayraq şəklini qoymaqla ifadə edir. Nəticədə işimiz xeyli asanlaşdı, vaxt itkisi aradan qalxdı".

**Qabil ABDULLAYEV**

## Hərbi təbabət ixtisası üzrə ilk dəfə elmi seminar keçirilib



**Bu günlərdə Hərbi Tibb Fakültəsində hərbi təbabət ixtisası üzrə ilk dəfə olaraq elmi seminar keçirilib.**

Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayevin sədrliyi ilə baş tutan seminarda Tibbi profilaktika kafedrasının baş müəllimi, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədovun məruzəsi dinlənilib.

Hərbi epidemiologiya sahəsini əhatə edən məruzədə hərbi kollektivlərdə epidemik prosesin hərəkətverici qüvvələrinin, sanitar-epidemioloji müəssisələrin müharibə dövründə fəaliyyət xüsusiyyətlərinin tədqiqi öz əksini tapıb. Həmçinin məruzədə əks-epidemik təminatın qüvvə və təminatının təkmilləşdirilməsi, retrospektiv, prospektiv və operativ analizin aparılması və nəticələrin qiymətləndirilməsi məsələlərinə də toxunulub. Bundan əlavə, hərbi qulluqçuların immunizasiyası üsulları, təcili və spesifik profilaktika vasitələri, onlardan istifadə qaydalarının təkmilləşdirilməsindən danışan məruzəçi, hərbi qulluqçular arasında yayılmış çoxsaylı qeyri-infeksion xəstəliklərin araşdırılması və profilaktik tədbirlərin görülməsindən söhbət açıb.

Sonda mövzuya dair müzakirələr aparılıb və məruzəçi seminar iştirakçılarının suallarını cavablandırıb.





## Tədris Cərrahiyyə Klinikasının laboratoriyasında ən müasir cihazlar quraşdırılıb

**ATU-nun Tədris Cərrahiyyə Klinikasının Mərkəzi Laboratoriya şöbəsi universitetin Rezidentura və magistratura şöbəsi ilə birgə seminar keçirib. Tədbirin moderatoru, assistent Namiq Xəlilov seminarın laborator müayinəyə həsr edildiyini və bu laboratoriyanın xəstələrə yüksək səviyyəli xidmət göstərməklə yanaşı, həm də yüksək ixtisaslı kadrların hazırlanması işini həyata keçirdiyini bildirib.**

Klinik laborator diaqnostikada Pre-analitik prinsiplər" mövzusunda çıxış edən TCK-nın Mərkəzi Laboratoriyasının həkimi Bəsti Məmmədova burada yaradılan şəraitdən və imkanlardan, həmçinin pasiyentlərin laborator müayinəyə gələrkən nələri bilmələri, mövcud metod və qaydalardan necə istifadə etmələri, eləcə də analizləri günün hansı saatında verə biləcəkləri barədə ətraflı məlumat verib: "Laboratoriyamız dünyanın müasir texnologiyalarını özündə cəmləşdirən, Almaniya, Yaponiya, ABŞ və Avropa istehsalı olan referans cihazlarla təchiz olunub. Müayinələr müasir biokimyəvi analiz metodlarını özündə cəmləşdirən rəhbərliklər və CLSI (Clinical Laboratory Standarts Institute) standartları əsasında icra olunur".

B.Məmmədova laboratoriyada həyata keçirilən yeniliklərdən danışıb: "Pasiyentlərin analiz verməzdən əvvəl əyləşib 15-20 dəqiqə istirahət etməsi vacibdir. Klinikaya müraciət edən xəstələrin təxminən 80%-i laborator analizlərə yönləndirilir. Xəstələrə diaqnozun qoyulması 60-70% laborator nəticələrə əsaslanır. Laboratoriyada nəticələri ən qısa müddətdə hazır etmək üçün lazımi sistemlər işlənib hazırlanıb. Bununla yanaşı, nəticələrin daha tez verilməsi üçün əməkdaşlara təzyiq göstərilməməlidir. Çünki bu zaman xəta ehtimalı artır və xəstənin sağlamlığı üçün təhlükəli vəziyyət yarana bilər".

Sonra mövzu ətrafında çıxış edən TCK-nın Mərkəzi Laboratoriyasının müdiri Elxan Nağıyev analiz nəticələrinin daha dəqiq və düzgün verilməsi üçün vacib olan pre-analitik mərhələnin prinsiplərindən söhbət açıb.

Sonda iştirakçıların mövzu ilə bağlı verdikləri suallar məruzəçi tərəfindən cavablandırılıb. Tədbirdə klinikanın rezidentləri və tələbələri iştirak ediblər.

# Bakıda "22-ci Təməl Artroplastika Kursu" təşkil olunub

## Gənc həkim və mütəxəssis ortoped-travmatoloqlar öz biliklərini yeniləmək imkanı qazanıb

**Yanvarın 26-da "Baku Marriott Hotel Boulevard"da Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Türk Ortopedi və Travmatoloji Kafedrasının və Kalça-Diz Artroplastika Dərnəyinin (KADAD) birgə təşkilatçılığı ilə ölkəmizdə keçirilən "22-ci Təməl Artroplastika Kursu"nun açılış mərasimi olub.**



Əvvəlcə torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə şəhidlik zirvəsinə ucalmış həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının, Türkiyə Cümhuriyyətinin dövlət himnləri səsləndirilib.

Bundan sonra tədbirin aparıcısı, Hərbi tibb fakültəsinin II kurs tələbəsi Hidayət Kazımzadə açılış nitqi ilə çıxış etmək üçün sözü ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərova verib. Bu tədbiri Azərbaycan Travmatologiya və Ortopediya Cəmiyyətinin böyük uğurunun bir göstəricisi kimi dəyərləndirən prorektor bildirib ki, müasir dövrdə səhiyyənin ən vacib istiqamətlərindən biri də diz-oynaq artroplastikasıdır: "Səhiyyə Nazirliyinin dəstəyi sayəsində son dövrlərdə bu sahəyə xüsusi diqqət göstərilir. Belə ki, Azərbaycanda diz-oynaq əməliyyatları son illərdə 3 dəfədən çox artıb. Bugünkü tədbirin bir önəmi də ondan ibarətdir ki, həmişə olduğu kimi, qardaş Türkiyənin alimləri yenə yanımızdadır. Fürsətdən istifadə edib onların hər birinə öz təşəkkürümü bildirirəm. Onu da diqqətinizə çatdırım ki, son illərdə ATU-nun Travmatologiya və ortopediya kafedrası və Türkiyənin Kalça-Diz Artroplastika Dərnəyinin müştərək fəaliyyəti öz bəhrəsini verməkdədir".

Artroplastika kursunda aktual problemlərə dair maraqlı məruzələrin dinləniləcəyinə inandığını söyləyən prorektor, çıxışının sonunda tədbir iştirakçılarına universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını çatdırıb və konfransın işinə uğurlar arzulayıb.

Kursun həmsədri, professor Eldar Abbasov ATU-nun Travmatologiya və ortopediya kafedrasının KADAD ilə əvvəllər də birgə tədbirlər keçirdiyini xatırladaraq vurğulayıb ki, bu günkü kursun əhatə dairəsi daha genişdir. O, diz və böyük oynaqların artroplastikası, süni oynaqlarla əvəz edilmənin daim təkmilləşdiyini diqqətə çatdırıb. Eyni zamanda KADAD-ın ölkəmizdəki xidmətlərindən məmnunluqla söhbət açıb və qardaş Türkiyədə təhsil alaraq artroplastika sahəsində uğurla çalışan ortopedlərimizə tövsiyələrini verib.

Tədbirdə Kalça-Diz Artroplastikası Dərnəyinin sədri, kursun həmsədri, professor Emre Toğrul da çıxış edərək bildirib ki, bu kurs xüsusən bud-çanaq və diz oynaqları artroplastikası üzrə təlim almaq istəyən gənc həkimlər və biliklərini yeniləmək istəyən mütəxəssis ortoped-travmatoloqlar üçün təkcə nəzəri biliklər verməklə məhdudlaşmır. Həm də maket sümüklər üzərində praktik tətbiqlərlə onların bilik və bacarıqlarını yeniləmək məqsədi daşıyır. Qeyd olunub ki, kurs iştirakçılarına artroplastika üzrə təcrübəli mütəxəssislərin töhfələri ilə həm dəyirmi masa arxasında, həm də təqdimatlarda praktik və nəzəri müzakirə imkanları yaradılacaq.

Açılış mərasiminin sonunda Azərbaycanda ortoped və travmatoloqların yetişməsində böyük xidmətləri olan türkiyəli professorlar İlker Çetin, Emre Toğrul və Rəmzi Tözünə plaketlər təqdim olunub.

Məlumat üçün bildirək ki, 100-ə yaxın iştirakçının qeydiyyatdan keçdiyi kursun ilk günü bud-çanaq oynağının artroplastikasına, ikinci günü isə diz artroplastikasına həsr edilib. Kurslarda Türkiyədən və Azərbaycandan olan mütəxəssislərin çıxışları, müxtəlif formatlı təqdimatlar və mühazirələr baş tutub, ümumi müzakirələr və praktiki məşğələlər keçirilib.



# Avropada qızılca xəstəliyinə yoluxma halları artıb

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, ötən ilin yanvar-oktyabr aylarında Avropanın 53 ölkəsinin 40-da qızılca xəstəliyinə 30 minə yaxın yoluxma halı qeydə alınıb. Bu, 2022-ci il üzrə göstəriciləri 30 dəfə üstələyib. AZƏRTAC xəbər verir ki, xəstəliyə yoluxma nəticəsində 21 min nəfər xəstəxanaya yerləşdirilib, 5 nəfər ölüb. "Bu, narahatlıq doğurur. Vaksinasiya uşaqları bu potensial təhlükəli xəstəlikdən qorumaq üçün yeganə yoldur", - deyə ÜST-ün Avropa üzrə regional bürosunun rəhbəri Hans Anri P.Klyuge qeyd edib.

Böyük Britaniyada da qızılcaya yoluxanların sayı kəskin şəkildə artıb, xəstələnənlərin çoxu 10 yaşına qədər uşaqlardır.

Ölkənin Milli Səhiyyə Xidmətinin məlumatına əsasən, 16 yaşına qədər 3,4 milyondan çox britaniyalı uşaq bu yoluxucu xəstəlikdən müdafiə olunmayıb. Buna görə də daha çox valideyni uşaqlarını peyvənd etməyə təşviq etmək üçün kampaniyaya start vermək qərarına gəlinib.

2019-2022-ci illərdə Avropada vaksinasiya ilə əhatə orta hesabla 96 faizdən 93 faizə düşüb. Səbəblərdən biri kimi pandemiya və ona qarşı görülən tədbirlər qeyd olunur.

# Bəşəriyyətin qorxduğu xəstəlik: cüzəmin çarəsi hələ də tapılmayıb

## ATU-nun professoru Respublika Cüzəm Xəstəxanasında xəstələrlə çay içdiyini və yoluxmadığını deyir




**Bəşəriyyətin əsrlərdir ən ağır bəlalardan biri kimi qəbul etdiyi cüzəm xəstəliyi barədə məlumata hələ eramızdan əvvələ aid yazılı abidələrdə rast gəlinir. 1954-cü ildən etibarən hər il yanvarın sonuncu bazar günü Ümumdünya Cüzəm Xəstələrinə Yardım Günü kimi qeyd edilir. Bu tarix bu il yanvarın 28-nə təsadüf edir. Bəs ölkəmizdə adıçəkilən xəstəliklə bağlı vəziyyət necədir? Xəstələr hansı şəraitdə müalicə olunur?**

"Təbib" qəzetini maraqlandıran suallara Azərbaycan Tibb Universitetinin Epidemiologiya və biostatistika kafedrasının müdiri, tibb elmləri doktoru, professor İbadulla Ağayev geniş cavab verdi.

Professor bildirdi ki, bu gün cüzəm xəstəliyinə dünyanın bir sıra ölkələrində rast gəlinir: "Cüzəmin yoluxucu xəstəliklərə məxsus xüsusiyyətlərə malik olması barədə alimlər arasında müxtəlif fikirlər səsləndirənlər var. Bəziləri cüzəmin insandan insana keçməsini mümkün, digərləri isə qeyri-mümkün hesab edir. Amma bu xəstəliyin etiologiyası bu günədək tibb elminə bəlli olmadığı üçün yoluxucu hesab edilmir. Cüzəmin törədicisini ilk dəfə 1873-cü ildə norveçli həkim Herhard Hanzen tapıb. Diqqətinizə çatdırım ki, xəstəlik nəticəsində ən çox dəri, yuxarı tənəffüs yolları və periferik sinirlər zədələnir. Həmin toxumalarda xarakterik iltihab ocaqları əmələ gəlir. Cüzəmə bəzən "leproz", "prokaza" və ya "Hanzen xəstəliyi" də deyilir".

Hər il Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə müxtəlif simpoziumların keçirildiyini bildirən kafedra müdiri, həmin tədbirlərdə xəstəliklə bağlı müxtəlif baxışlar ortaya qoyulduğunu qeyd etdi: "Bəzi alimlərin bildirdiyinə görə, xəstəliyə uşaq yaşlarında, adətən oğlan uşaqlarında rast gəlmək olur. Amma son illər aparılan müşahidələr zamanı bəlli oldu ki, xəstəlik qız uşaqlarında da aşkar edilir. Ölkəmizdə, o cümlədən dünyanın bir sıra ölkələrində səhiyyə sistemi cüzəmlə ciddi mübarizə aparır. Xəstəlik dövlət tərəfindən xüsusi nəzarətdə olduğu üçün hələ sovetlər dönəmində Umbakı qəsəbəsi ərazisində Respublika Cüzəm Xəstəxanası tikilmişdi. Elə o vaxtdan yaxşı şəraiti vardı.

Orada təxminən 100-ə yaxın xəstə müalicə olunurdu. Biz o zaman Tibb İnstitutu olaraq tələbələrimizi praktik dərs zamanı oraya aparıb xəstələri onlara göstərirdik. Xəstələrlə ünsiyyət qurmaq çox çətin idi. Çünki xəstəliyin əlamətləri üz nahiyəsində başlayır. Burun, qulaq, dodaqlarda yeyilmə, çürümə prosesi gedir, orqanlar düşür, sifət eybəcərləşir. Bu səbəbdən onlar düşdükləri vəziyyətdən utanır, ətrafdakılarla ünsiyyət qurmaqdan çəkinirdilər. Ona görə onlar xəstəxana şəraitində yaşamağı üstün tutur, öz istəkləri ilə müəyyən vaxtlarda yalnız ailə üzvləri ilə görüşürdülər. Amma mənimlə çox tez ünsiyyət yaratdılar. Çünki çəkinmədən otaqlarına daxil olur, oturub söhbət edir, verdikləri konfetlə süzdükləri çaydan içirdim. Onların hamısı ümumi palatada yatmırdı. Bir neçəsi xəstəxanada ailə qurmuşdu, bu səbəbdən ayrıca otaqlarda yaşayırdılar. Təminatlarına isə söz ola bilməzdi.

Onlar hər şey yeyirdilər, yəni qidalanmada hansısa yeməyə, meyvə və tərəvəzə qadağa qoyulmur. Xəstələr xəstəxanada prosesi ləngidən preparatlarla müalicə olunur.

Əksəriyyəti ilə ayrı-ayrılıqda maraqlanmışam. Aralarında olduqca savadlı insanlar var. Heç yadımdan çıxmaz, Naxçıvandan bir kişi var idi, tariximizi çox gözəl bilirdi. Onunla saatlarla oturub söhbət edirdik. Mənə çay təklif edib, içmişəm".



Professorun sözlərinə görə, ilk dəfə xəstəxanada 1976-cı ildə olub: "O vaxtdan 48 il vaxt keçib. Hələ ki özümü normal hiss edirəm. Əgər bəzi alimlərin dediyi kimi, cüzəm yoluxucu olsaydı, mən və ora apardığım tələbələr çoxdan yoluxardıq. Belə bir fakt indiyədək qeydə alınmayıb".

Müsahibimiz hazırda respublika üzrə 37 nəfərin qeydiyyatda olduğunu bildirdi. Onlardan 13 nəfər Respublika Cüzəm Xəstəxanasında, qalanları isə ambulator qaydada müalicə olunur: "Onlardan bəziləri yüngül işlərlə təmin olunub, işləyirlər. Bəzən onlarla küçədə rastlaşır, hal-əhval tuturam. Bəzilərinin harada işlədiklərini bildiyim üçün arada onlara baş çəkir, tənha buraxmıram. Onların adi xoş sözə, isti münasibətə ehtiyacları var. Görüşəndə çalışıram ki, həyatda özlərini kimsəsiz, tənha hiss etməsinlər".

Professor rəhbərlik etdiyi kafedrada Tələbə Elmi Cəmiyyətinin xətti ilə tələbələrə cüzəmlə bağlı mövzuların verildiyini də nəzərimizə çatdırdı. Əlavə etdi ki, yeni semestrdə rektorun icazəsi ilə tələbələri Respublika Cüzəm Xəstəxanasına aparmaq niyyətindədir: "Son olaraq, onu da deyim ki, Rusiya, Qazaxıstan, qardaş Türkiyədə cüzəmli xəstələrin müalicəsi ilə məşğul olan, yüksək səviyyədə təchiz edilmiş xəstəxanalar fəaliyyət göstərir. İstəyirəm ki, adıçəkilən ölkələrin xəstəxanaları ilə elmi əməkdaşlıq edək, tələbələrimizi ora kurslara, təcrübə keçməyə göndərək. Hazırda bu istiqamətdə Qazaxıstanla danışıqlar aparılır. Ümidvaram ki, yaxın vaxtlarda bunun müsbət nəticəsi olacaq".

**Q.ABDULLAYEV**

**Uşaq və yeniyetmələrin inkişafı və sağlamlığının formalaşdığı müddətin çox hissəsi ümumtəhsil müəssisələrində keçir və onların əsas fəaliyyətini də tədris təşkil edir. Təhsil sisteminin vəzifəsi isə böyüyən nəslə elmlərin əsasları haqqında dərin biliklər vermək, lazımi vərdiş və bacarıqlar yaratmaq, həmçinin vətəndaşlıq dünyagörüşünü formalaşdırmaqdır.**



# Sinifdə şagird sayının təhsilalanların sağlamlıq vəziyyətinə təsiri

## Araşdırmalar göstərir ki, sinif otaqlarında mikroiqlimin pisləşməsi şagirdlərin müvəffəqiyyət göstəricilərinə mənfi təsir edir

Bununla yanaşı, sağlam və təhsilli nəsil yetişdirmək üçün məktəbdə uşaq və yeniyetmələrin sağlamlığı da qorunmalıdır. Uşağın sağlamlıq vəziyyəti və inkişafı, dinamikada əqli iş qabiliyyətinin dəyişməsi, mənimsəmə və dərsə davamiyyət göstəricisi sinif otağının tutumu və şagird sayı, onun planlaşdırılması və təchizatı ilə qırılmaz surətdə əlaqədardır.

Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli qərarına əsasən, "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"ndə şagird sayı və mebel təchizatı sinfin tutumuna uyğun müəyyən edilir və hər uşağa sinifdə ən azı 2 kv metr sahə düşməlidir. Bu tələbə uyğun məktəblərimizdə sahəsi 36 və 48 kv metr olan sinif otaqlarında maksimum 18 və 24 uşaq təhsil ala bilər. Buna müvafiq olaraq 9 və 12 ədəd iki yerli və ya 18 və 24 ədəd bir yerli parta tələb olunur.

Sinif otağında partalar adətən üç sırada və üç cərgədə yerləşdirilməli, lövhədən şagird masalarının 1-ci cərgəsinə qədər məsafə 300 sm, istisna hallarda ən azı 240 sm, sonuncu cərgəyə qədər olan məsafə isə 860 sm olmalıdır. Partaların yerləşdiyi sıralar arasında məsafənin 60 sm, xarici divardan I parta sırasına qədər məsafənin 50-70 sm, daxili divardan III parta sırasına qədər məsafənin 50-70 sm, axırıncı partadan arxa divara, lövhənin əks tərəfində olan divara qədər olan məsafənin isə 70 sm-dən az olması sinif tərtibatının və sinifdə iş zonasının münasib ölçülərinin pozulması deməkdir.

Sinifdə şagird sayının 40 nəfər və daha çox olması parta sayını 20 ədəd və daha çox artırır ki, bu da tədris otaqları layihələndirilərkən nəzərdə tutulan ümumi iş zonasında şagirdlər (tədris stollarının yerləşməsi) və müəllim üçün iş zonası, eləcə də əyani-tədris və texniki-tədris vasitələri yerləşdirilən, şagirdlərin fərdi məşğələləri və aktiv fəaliyyət zonaları uyğun sahələrin azalmasına səbəb olur. Sinifdə şagird sayının çox olması nəticəsində havanın fiziki və kimyəvi tərkibi də dəyişir ki, nəticədə otaq havasında karbon qazının miqdarı artır, oksigenin miqdarı azalır, toz və bakterial çirklənmə əhəmiyyətli dərəcədə yüksəlir və ağciyər ventilyasiyasının enməsi hipoksiya vəziyyəti yaradır.

Belə şəraitdə uzun müddət qalan uşaq və yeniyetmələrdə mərkəzi sinir sisteminin funksional vəziyyəti dəyişir, iş qabiliyyəti pisləşir, başagrısı, süstlük və əzginlik yaranır. Sinif otağında yüksək rütubət, hava cərəyanının az olması və temperaturun artması orqanizmdən istiliyin verilməsinin də pisləşməsinə səbəb olur. Bütün bunlar təbii ki, uşaqların sağlamlıq vəziyyətinə təsir edir.

Gigiyenik cəhətdən uşaqların görmə qabiliyyətinin pozulmaması üçün lövhə ilə birinci sıra arasındakı (ən azı 240 sm) və yaşdan asılı olaraq dəyişən görmə bucağı lövhədən birinci yan sıra partalara qədər məsafələr nəzərə alınmalıdır. ÜST-ün məlumatına görə 1,97-3,4 milyard insan miyopiyadan əziyyət çəkir. Bunlardan 265 milyondan 369 milyona qədəri yetkinlik yaşına çatmayan uşaq və yeniyetmələrdir. Şərqi Asiya ölkələri və Sinqapur məktəbliləri arasında miyopiya 65%-80% olmaqla həyəcanverici dərəcədə yüksək səviyyələrə çatıb. 2050-ci ilə qədər miyopiyanın dünya əhalisinin 50%-ni əhatə edəcəyi proqnozlaşdırılır və bütün dünyada 21-ci əsrin əsas ictimai sağlamlıq problemi kimi tanınır.

Tədqiqatların nəticəsi göstərir ki, məktəblərin tutumunun artırılması miyopiya ilə yanaşı, kəskin respirator xəstəliklərin, qrip, tonzillit və s. kimi məktəb xəstəliklərinin artmasına, yüksək səs-küyə, yaşlar üzrə təcridin çətinləşməsinə səbəb olur. Böyük tutumlu məktəblərdə kəskin xəstəliklər 2 dəfə, vegetativ- damar distoniyası və başağrı şikayətləri 2-3 dəfə yüksəkdir. Sinif otaqlarının sahəsi və hündürlüyünün az, uşaqların sayının isə çox olması və ventilyasiyanın səmərəsiz təşkili otaq havasında toksik mübadilə məhsullarının yol verilən konsentrasiyadan bir neçə dəfə artıq olmasına gətirib çıxarır. Araşdırmalar göstərir ki, sinif otaqlarında da mikroiqlimin pisləşməsi şagirdlərin müvəffəqiyyət göstəricilərinə də mənfi təsir edir.

Milli maraqlara xidmət edən təhsil sisteminin təşkilində dövlət təhlükəsizliyinin tələbləri mütləq nəzərə alınmalı və iqtisadi, sosial, hərbi, mənəvi təhlükəsizlik prinsiplərinə əməl olunmalıdır. Bir sözlə, tədris prosesində akademik biliklərin əldə edilməsi heç bir əsasla gənc nəslin - şagirdin sağlamlığı hesabına olmamalıdır.

**Şəhla BALAYEVA**
*Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri,*
**Zöhrə İSMAYILOVA**
*kafedranın dosenti*

# Peyvənd olunmamış insan qızılca qarşısında müdafiəsizdir

## Professor Lalə Allahverdiyeva: "Bu xəstəliyin spesifik müalicəsi yoxdur, simptomatik müalicə isə həkim tərəfindən aparılır"

**ATU-nun Allerqologiya və immunologiya kafedrasının müdiri, əməkdar həkim, tibb elmləri doktoru, professor Lalə Allahverdiyeva uşaqlar arasında yayılmış qızılca xəstəliyi ilə əlaqədar bəzi məqamlara aydınlıq gətirib.**

Professor bildirib ki, qızılca təhlükəli infeksiyalardandır: "O çox yüksək yoluxuculuğa malik virus xəstəliyidir. Bu o deməkdir ki, qızılcaya yoluxmuş insanla təmasda olan və spesifik immuniteti olmayan şəxslər yoluxmaya məruz qala bilər. Çünki infeksiya mənbəyi yalnız xəstə insandır".

Son vaxtlar Bakıda və bəzi rayonlarda uşaqlar arasında qızılcanın, eləcə də məxmərəyin yayıldığını vurğulayan L.Allahverdiyeva qeyd edib ki, bunun əsas səbəbi valideynlərin vaksinasiyadan imtinasıdır: "Bundan başqa, COVİD dövründə insanlar üç il qapalı vəziyyətdə yaşadılar və vaksinlə əlaqədar həkimə müraciət etmədilər. Peyvənd olunmamış insanlarda isə qızılcanın ağırlaşması kimi meningit, laringit, otit, qıcolmalar və ensefalitlər inkişaf edə bilir. Yaşından asılı olmayaraq, əvvəllər bu xəstəliyə yoluxmayan və ya qızılca, parotit və məxmərəyə qarşı peyvənd almayan istənilən şəxsin bu xəstəliyə yoluxma ehtimalı var. Bundan əlavə, qızılca ilə əlaqəli pnevmoniya, inaq, orta qulağın iltihabı, ağız boşluğunda xoralar və ishal kimi ağırlaşmalar ən çox tənəffüs yollarına və ya həzm sisteminə təsir edir. Körpələrdə, həmçinin azyaşlı uşaqlarda, o cümlədən hamilə qadınlarda və immun sistemi zəif olan insanlarda qızılca xəstəliyi ilə bağlı ağırlaşmalar daha çox müşahidə olunur".



Mütəxəssis qeyd edib ki, pnevmoniyaya qarşı vaksinasiya alanlar 40 yaşına qədər yoluxa bilər. Lakin bu xəstəlik 40-dan sonra yüngül keçir və elə də çox hiss olunmur. Heç zaman bu xəstəliyi keçirməyən və ya qızılcaya qarşı vaksinasiya olunmayan şəxslər isə qızılca əleyhinə peyvənd vurdurmalıdır. Amma qızılcaya yoluxmuş və allergiyası olan insanlar vaksinasiya oluna bilməz. Yəni kliniki simptomları qeyd edilənlər mütləq həkim müayinəsindən keçməlidir.

L.Allahverdiyeva bildirib ki, qızılca infeksiyasına yoluxmuş yüngül simptomlu xəstələrin müalicəsi həkim nəzarəti altında ev şəraitində, yataq rejimi gözlənilməklə aparılır: "Ümumiyyətlə, qızılcanın spesifik müalicəsi yoxdur, simptomatik müalicə isə həkim tərəfindən təyin olunur. Lakin risk qrupuna daxil olan və yanaşı xəstəlikləri olan şəxslərdə ikincili bakterial infeksiya inkişaf edə bilər ki, bu da ağırlaşmalara gətirib çıxarar. Bu zaman xəstənin hospitalizasiyası və stasionar şəraitdə müalicəsi tövsiyə olunur".

# Ağciyərlərdəki "qalıq dəyişikliklər" nədir?



**Bu suala ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov özünün feysbuk hesabında aydınlıq gətirib:**

"Son zamanlar, əsasən də koronavirus pandemiyasından sonra müxtəlif müayinələr, xüsusilə də döş qəfəsi orqanlarının kompüter tomoqrafik müayinələrinin nəticələrində "ağciyərlərdə müxtəlif ölçülü düyünlər, fibroz dəyişikliklər və s. müəyyən edilir" kimi qeydlərlə tez-tez rastlaşırıq. Bu dəyişikliklər aşkar edilən pasiyentlərin bəziləri müxtəlif bronx-ağciyər şikayətləri (məsələn, öskürək, bəlğəm ifrazı, təngnəfəslik və s.) olanlar, bəziləri isə heç bir ciddi bronx-ağciyər narahatlığı olmadan, koronavirus pandemiyası dönəmindən, hətta həkim təyinatı olmadan çox istifadə edilən kompüter tomoqrafik müayinədən keçənlərdir".

Onun sözlərinə görə, 200-ə yaxını səpələnmiş, ümumilikdə isə 800-ə yaxın olan bronx-ağciyər patologiyalarının əksəriyyətində sağaldıqdan sonra müxtəlif ölçülü dəyişikliklər (çapıq, fibroz, kalsinat, düyün və s.) qala bilər. Ancaq bəzi hallarda pasiyentlərdən keçirdiyi ağciyər xəstəlikləri haqqında dolğun məlumat toplamaq mümkün olmur və kompüter tomoqrafik müayinədə aşkar edilən "qalıq dəyişikliklər"in mənşəyini təyin etmək çətin olur. Bu bəzi hallarda xəstəliyin öz-özünə sağalması nəticəsində də baş verə bilər. Ancaq bəzi "qalıq dəyişikliklər"in diqqətdən qaçırılmaması və nəzarətdə saxlanılması lazımdır. Xüsusilə "düyün" formasında olan "qalıq dəyişikliklər" bir sıra ağciyər patologiyalarının sağalması nəticəsində qalan qeyri-aktiv dəyişiklik olsa da, bəzi hallarda müxtəlif patologiyaların başlanğıc və ya kiçik mərhələsi də ola bilər.

"Bu qalıq dəyişikliklərin sayından və xüsusilə də ölçüsündən asılı olaraq, yanaşma taktikası haqqında protokollar mövcuddur" – bildirən mütəxəssis, qeyd olunan dəyişikliklər aşkar edilən pasiyentlərə təşvişə düşməməyi, ancaq təkcə kompüter tomoqrafik deyil, həmçinin kompleks klinik-laborator müayinə ilə dəyişikliyin mənşəyini müəyyənləşdirməyi və nəzarətdə saxlamağı tövsiyə edib.

# Yataq yaraları: nədən yaranır, necə müalicə olunur?

## Sağlam insanlarda hansısa nahiyəyə davamlı təzyiq ağrı törətdiyi üçün bədənin vəziyyətini dəyişmək ehtiyacı yaranır

**"Yataq yaraları uzun müddət yataqda qalan zəif xəstələrdə, həmçinin daimi olaraq təzyiqə məruz qalan nahiyələrdə baş verən distrofik xora və nekroz xarakterli bir patoloji prosesdir (latınca decubitus adlanır)". Bunu ATU-nun III Cərrahi xəstəliklər kafedrasının assistenti Arzu Rüstəmova yataq yaralarının yaranma səbəbi və nəticəsi, diaqnostika və müalicəsi üsullarından danışarkən deyib.**



O, əlavə edib ki, yataq yaraları davamlı və təkrar təzyiq nəticəsində dəri və dərialtı toxumanın zədələnməsi, toxumanın işemiyası və nekrozu deməkdir: "Yataq yaralarının yaranma ehtimalı təzyiqin təsir gücü və zamanından asılıdır. Yəni təzyiq nə qədər güclü və uzun olarsa, yataq yarasının əmələ gəlməsi ehtimalı da bir o qədər yüksək olar. Çox zaman dərinin sümük çıxıntıları olan hissələrində əmələ gələrək omba, büzdüm, sağrı, onurğanın sümük çıxıntıları, kürək və daban, çanaq sümüyü qanadlarının, çanaq oturaq qabarları nahiyələrdə müşahidə olunur. Sağlam insanlarda davamlı təzyiq ağrı törədir və bədənin vəziyyətini dəyişmək ehtiyacı yaranır. Huşsuz və hərəkətsiz, ağır pasiyentlər üçün yataq yaraları təhlükəli fəsadlaşma kimi qiymətləndirilir. Yəni fiziki aktivliyi məhdud olan, çox vaxtını çarpayıda və yaxud əlil arabasında keçirən şəxslər. Belə insanlarda bədənin təzyiqə məruz qalan hissələrinin yükünü azaltmaq və qan dövranını yaxşılaşdırmaq imkanı yoxdur və bu səbəbdən onlar yüksək risk qrupuna daxildir".

Sözünə davam edən Arzu xanım yataq yaralarının yaranma səbəblərindən də bəhs edib: "Bir tərəfdən sümüyün, digər tərəfdən yatağın yumşaq toxumalara davamlı təzyiqi, bədən səthinin yataq ağlarına sürtülməsi, bədən çəkisi (ya çox yüksək, ya da az), qidalanma (zülalın çatmamazlığı), sidik və nəcis qaçırma, yanaşı xəstəliklər (diabet və s), hormonal terapiya, anemiya, dərinin quru olması, hərarətin yüksək, ya da az olması.

Xəstəliyin inkişaf mərhələsindən asılı olaraq, yataq yaraları dörd dərəcəyə ayrılır: Birinci dərəcə - dəri örtüklərinin tamlığı pozulmayıb. Təzyiq çəkildikdən sonra keçməyən davamlı dəri hiperemiyası (qızartı), mikrosirkulyasiya hələ pozulmayıb; İkinci dərəcə - dəri örtükləri tamlığının səthi pozulması, dərialtı piy təbəqəsinin prosesə cəlb edilməsi. Davamlı dəri hiperemiyası, mikrosirkulyasiya pozulub, vizual olaraq toxumaların iltihabı və ödemi aşkar edilir; Üçüncü dərəcə - dəri örtüklərinin əzələ qatına qədər və əzələyə sirayət etməklə zədələnməsi. Qovuqların əmələ gəlməsi, yara kənarları hamardır, şişkinlik və qızartı var. Bütün yumşaq toxumaların zədələnməsi. Yoluxma olmaya bilər, təmiz, qranulyasiyalı yara. Bəzi hallarda dərialtı piy təbəqəsi və yaxın toxumalar mövcuddur. Yara dibi nekrotik kütlələrlə örtülüb; Dördüncü dərəcə - nekroz, alt toxumaların üstünü açan (vətərləri, sümüyə qədər) boşluğun olması - pis qoxu və çoxlu miqdarda irinli ekssudat, yara boşluğunda parçalanma və nekroz mərhələsində olan toxumalar aşkar edilir".

Yataq yaralarının profilaktikasından da danışan mütəxəssis vurğulayıb ki, bu, xəstəyə düzgün qulluqdan ibarətdir: "Xəstənin yerləşmə vəziyyəti sistematik olaraq (hər 2-3 saatdan bir) dəyişdirilməli, omba və büzdüm nahiyələrinin altına rezin dairə qoyulmalı və dairəyə hava vurulmalıdır. Həmçinin xəstənin altına masajedici havalı su, pnevmatik döşək qoymaqla və çox funksiyalı yataqlar, baş, ayaq, bud nahiyələrin mexaniki olaraq yerini dəyişdirməklə təzyiqlərin intensivliyini azalda bilərik.

Sağalma mərhələsindən başqa, yaranın dərinliyi, nekrotik toxumanın olması və ifrazatın miqdarı da nəzərə alınmalıdır. Məhz bu baxımdan hər bir yara fərqli sarğı, bəzən müalicə dövründə dəyişən bir neçə sarğı tələb edir. Yataq yaralarının əmələ gəlməsinin qarşısını almaq və onların sağalmasını tezləşdirmək məqsədi ilə aloe, B vitamini, askorbin turşusu, kalorili qida, ümumi vannalar qəbul etmək lazımdır. Daim təzyiqə məruz qalan nahiyələrə kamfora spirti, naşatırın 0,5% spirtli məhlulu, salisil turşusunun 1% spirtli məhlulundan sürtmə və yüngül masajla istifadə olunmalıdır".

Yataq yaralarının cərrahi müalicə tələb etdiyini söyləyən həkim bildirib ki, bu müalicə irinli toxumaların daimi sanasiya olunması üçün intensiv terapiya ilə yəni nekrotomiyadır: "Qeyd edim ki, yataq yaralarının müalicəsi çətin və uzun prosesdir. Onun daha az xərc tələb etməsi və səmərəli olması üçün intensiv terapiya ilə aparılır. Həkim təyinatı - medikamentoz və zərurət yarandığı halda mütləq cərrahi müalicə aparılmalıdır. Bundan başqa, antibakterial, nekrotik, degidratasiyaedici, angioprotektor, iltihab əleyhinə, regenerativ prosesləri stimulyator preparatlarından və eləcə də müasir gümüş tərkibli mazlardan istifadə olunmalıdır".



## Qanlı Yanvar şəhidləri

**İllər keçir, vaxt ötüşür,**
**Qara saça dənlər düşür.**
**Xiyabanda uyuyursuz,**
**Yaddaşlarda heykəlsiniz,**
**Qanlı Yanvar şəhidləri.**

**Yumruq təki birləşərək,**
**Əliyalın çıxıb yola,**
**Tank önündə dayandınız**
**Gözünüzü qırpmadan siz,**
**Qanlı Yanvar şəhidləri.**
**Cəllad verdi göstərişi,**
**Azərbaycan üzərinə**
**Böyük bir ordu yeridi,**
**Canınızı sipər etdiz,**
**Qanlı Yanvar şəhidləri.**

**Bakı oldu güllələbaran,**
**Qan gölünə döndü hər yan.**
**Zülmətə gün düşdü bir an –**
**Məşəltək yandı qəlbiniz,**
**Qanlı Yanvar şəhidləri.**

**"İlham, Fərizə" dastandır,**
**Bir ürəkdə iki candır.**
**Ruhunuz sevinsin barı,**
**Qarabağ Azərbaycandır.**
**Siz Vətəndə əbədisiz,**
**Milyonlardan biri kimi**
**Qarşınızda baş əydik biz,**
**Qanlı Yanvar şəhidləri!**

**Mirzamin Muxtarov,**
**Yoluxucu xəstəliklər kafedrasının dosenti**

# Tələbələrin dünyagörüşü və mənəvi keyfiyyətlərini formalaşdıran kafedra

**ATU-nun qocaman kafedralarından biri sayılan İctimai fənlər kafedrası tələbələrin elmi, ictimai dünyagörüşünün və mənəvi keyfiyyətlərinin formalaşmasında, milli ləyaqət və vətənpərvərlik hisslərinin inkişafında mühüm rol oynayır.**



Kafedranın müdiri, professor Qoşqar Əliyev "Təbib"in əməkdaşı ilə söhbətində bildirib ki, bu kafedra 2013-cü ilin iyun ayında ATU-nun Böyük Elmi Şurasının qərarı ilə İqtisadi nəzəriyyə və hüququn əsasları, Fəlsəfə və Azərbaycan tarixi kafedralarının birləşməsi bazasında yaradılıb.

Onun sözlərinə görə, 1930-cu ildə "Ümumittifaq Kommunist Partiyası tarixi" kursunu tədris edən kafedra təşkil edilib. 1938-ci ildə keçmiş SSRİ-nin bütün ali məktəblərində "Marksizm-leninizmin əsasları" adlı (Fəlsəfə daxil olmaqla) vahid tədris kursunu əhatə edən kafedra və 1950/51-ci tədris ilində Azərbaycan Dövlət Tibb İnstitutunda "Siyasi iqtisad" kafedrası yaradılıb. 1973-cü ildə kafedra müdiri vəzifəsinə AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor Aqil Əlirza oğlu Əliyev seçilib. Q.Əliyev vurğulayıb ki, 1999-cu ildə ATU-nun Elmi Şurası kafedranın "İqtisadiyyat və hüququn əsasları" adı altında fəaliyyət göstərməsi haqda qərar qəbul edib və professor A.Əliyev yenidən ona rəhbərlik edib: "Onun rəhbərliyi dövründə Siyasi iqtisad kafedrası Tibb İnstitutunun ən qabaqcıl kafedralarından birinə çevrilmişdi. Fənnin tədrisi Tibb İnstitutunun profilinə uyğunlaşdırılmışdı. Professor Aqil Əliyev 200-dən artıq elmi əsərin, o cümlədən 18 monoqrafiya və kitabın müəllifidir.

1963-cü ildən ADTİ-da müstəqil fəaliyyətə başlayan Fəlsəfə kafedrasının yaradıcısı və ilk müdiri Əməkdar elm xadimi, professor Adil Nəcəfov olub. 1989-cu ildə onun vəfatından sonra kafedraya professor Qurban Bayramov rəhbərlik edib. 1996-cı ildən 2013-cü ilədək isə kafedra müdiri mən olmuşam".

2009-cu ildə Azərbaycan tarixi kafedrasının müdiri, professor Əkrəm Zeynalovun vəfatından sonra professor Fəxrəddin Məmmədov 2013-cü ilə qədər kafedraya rəhbərlik edib. 2013-cü ildə hər üç kafedra birləşərək, İctimai fənlər kafedrası adlanıb və həmin ildən professor Q.Əliyev kafedranın müdiridir.

Onun verdiyi məlumata görə, tələbələrə I kursda "Azərbaycan tarixi", İctimai sağlamlıq fakültəsində isə "Səhiyyənin iqtisadiyyatı" fənləri məcburi, həmçinin I və II kurslarda "Fəlsəfə", "Hüququn əsasları", "Multikulturalizm" seçim fənləri kimi tədris olunur.

Kafedradakı müdafiə işlərindən və eləcə də dərs vəsaitlərindən bəhs edən Qoşqar müəllim deyib ki, onun rəhbərliyi ilə 6 nəfər f.ü.f.d. dissertasiyasını müdafiə edib: "Son dövrlər ərzində 2 əməkdaş namizədlik dissertasiyası müdafiə etmiş, 2-si dissertasiya işlərini yekunlaşdırmış, 2-si isə doktorantdır. Kafedra əməkdaşları çoxsaylı məqalə və monoqrafiyaların, 5 dərs vəsaitinin müəllifi olmaqla yanaşı, həm də bir sıra beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfranslarda iştirak etmişlər. Müəllifi olduğum "Təbabət fəlsəfəsi", "Təbabət etikası" kitabları, mərhum professor Fəxrəddin Məmmədovun "Azərbaycan dövlətçilik tarixi" dərs vəsaiti tələbələr üçün önəmli bilgi mənbəyidir".

Hal-hazırda kafedrada 1 professor, 6 dosent, 3 baş müəllim, 2 müəllim, 5 baş laborant, 2 laborant, 2 baş preparator çalışır. Q.Əliyev 2010, F.Məmmədov isə 2021-ci ildə ölkə Prezidenti İlham Əliyevin sərəncamları ilə "Əməkdar müəllim" adına layiq görülüblər.

Qeyd edək ki, professor Q.Əliyev 160-dan artıq elmi əsərin, o cümlədən 10 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin müəllifidir. Onun "Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi" adlı əsərində milli ləyaqətin qorunub saxlanılmasının strategiya və metodologiyası problemləri sahəsində görülən tədbirlərin təhlili verilib və Ulu Öndərin bu sahədəki xidmətləri araşdırılıb. "Heydər Əliyev və milli mentalitet fəlsəfəsi" əsərində isə Ulu Öndərin sosial fəlsəfəsinin və xalqın mentalitetinin formalaşmasının elmi-metodoloji prinsipləri açıqlanır, mentalitetin qaynaqları, tarixi yaddaş, vətən amalı, azərbaycançılıq ideyası, milli həmrəylik və siyasi mentalitet kimi az tədqiq edilən problemlər şərh olunur.

**M.ƏLƏKBƏRLİ**

# Zəhmətkeş alim ömrü



**Respublikada əhali sağlamlığının mühafizəsi məsələsini özünün əsas həyat kredosu hesab edən alimlər sırasında xüsusi yer tutan Azərbaycan Tibb Universitetinin Qidalanma və tibbi ekologiya kafedrasının məsləhətçi-professoru, respublikanın əməkdar müəllimi, professor Mirzə Ağababa oğlu Kazımovun bu günlərdə 75 yaşı tamam oldu.**

1974-cü ildə ATU-nun Sanitariya-gigiyena (indiki İctimai səhiyyə) fakültəsini fərqlənmə diplomu ilə bitirən M.Kazımov 1977-ci ildə namizədlik, 1987-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib.

O, 1979-88-ci illərdə indiki ATU-nun Əmək gigiyenası kafedrasında assistent və baş müəllim, sonra isə universitetin ən böyük kafedralarından olan Ümumi gigiyena və ekologiya kafedrasının baş müəllimi (1988-89), professoru (1989-92-ci illər) vəzifələrində işləyib, 1992-ci ildə isə kafedranın müdiri vəzifəsinə seçilib.

Bir gigiyenist-alim kimi respublikanın ekoloji-gigiyenik problemlərinin həlli istiqamətində mühüm tədqiqatlara rəhbərlik edən professor M.Kazımov özünün yaratdığı və formalaşdırdığı gigiyenada ağır metallar probleminə aid elmi məktəbi inkişaf etdirməklə yanaşı, onun elmi rəhbərliyilə respublikada insan ekologiyasına, əhali sağlamlığının mühafizəsinə, ətraf mühit obyektlərinin gigiyenik məsələlərinə dair mühüm elmi-təcrübi əhəmiyyətli iri tədqiqat işləri yerinə yetirilib. Bu tədqiqatlar sırasında neftin çıxarılması və emalı ilə əlaqədar istehsalat proseslərində torpağın texnoloji tullantılarla, o cümlədən radioaktiv maddələrlə çirklənməsinin tədqiqi və mühafizəsinin elmi əsaslarının işlənib hazırlanması əsas yer tutur.

Ölkə ərazisində ekoloji mühitə və əhali sağlamlığına avtonəqliyyat tullantılarının zərərli təsirinin mühüm bir ekoloji-gigiyenik problem olması nəzərə alınaraq, professor M.Kazımovun rəhbərliyi altında bu istiqamətdə geniş miqyaslı tədqiqatlar (2005-2010) aparılıb.

Son illərdə Prezident İlham Əliyevin yaşıllıqların qorunub saxlanmasına, yeni yaşıllıq sahələrinin salınmasına göstərdiyi böyük diqqət, habelə bu sahədə bir sıra nazirliklərin və ictimai təşkilatların əməyi sayəsində respublika avtomobil magistralları keçən ərazilərdə yaşıllıq zolaqlarının salınması geniş vüsət alıb. Bu işdə professor M.Kazımovun rəhbərliyilə aparılan tədqiqatların əhəmiyyətini görməmək olmaz.

Professorun rəhbərliyilə aparılan elmi işlərin mühüm istiqamətlərindən biri də Bakı şəhərində əsasən avtonəqliyyat tullantılarının tərkibində olan ağır metallarla ətraf mühitin çirklənməsi hesabına əhalinin aldığı ümumi "metal yükü"nün tədqiqindən ibarət olub (2012-2015). Tədqiqatlardan alınan elmi nəticələr yüksək urbanizasiyalaşmış şəhərlərdə əhali sağlamlığının texnogen tullantılara görə risk altında olduğunu göstərib. Professor M.Kazımovun rəhbərliyi altında aparılan elmi tədqiqatlardan əldə olunan elmi nəticələr Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş 20-dən çox müxtəlif normativ xarakterli sənədlərdə və elmi-metodik tövsiyələrdə, monoqrafiyalarda və respublika əhəmiyyətli "Ekoloji atlas"da öz əksini tapıb.

M.Kazımovun elmi rəhbərliyilə tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün 20-dən çox dissertasiya işi yerinə yetirilib və müdafiə olunub. Onun elmi işlərinə aid materiallar 350-yə qədər elmi əsərdə nəşr edilib, bir çox beynəlxalq elmi forumlarda dinlənilib və böyük maraqla qarşılanıb. Professor Ümumdünya Səhiyyə Təşkilatının bir çox konfrans və müşavirələrində Səhiyyə Nazirliyinin nümayəndəsi kimi respublikada gigiyena elminin və sanitariya işinin təşkili və inkişafına dair məruzələrlə çıxış edib.

Təkcə mühüm elmi-pedaqoji deyil, həm də ictimai fəaliyyəti ilə seçilən professor M.Kazımov hazırda AMEA-nın Elmi-Nəşriyyat Şurasının, Rusiyada və respublikada nəşr olunan bir sıra elmi-tibbi jurnalların redaksiya heyətinin və şurasının, ATU-nun profil elmlər üzrə Dissertasiyaların aprobasiyasını keçirən Şuranın üzvüdür. Bu gün də yüksək enerji ilə elmi yaradıcılığı və pedaqoji fəaliyyətini davam etdirən Mirzə müəllimə yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq!

**Qidalanma və tibbi ekologiya kafedrasının əməkdaşları**

# Faydalı dərs vəsaiti nəfis tərtibatda işıq üzü görüb

**ATU-nun II Mamalıq və ginekologiya kafedrasının bir qrup əməkdaşı tərəfindən hazırlanmış "Mamalıq" dərsliyi işıq üzü görüb. 725 səhifədən ibarət kitaba ATU-nun I Mamalıq və ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva və Ə.Əliyev adına ADHTİ-nin Mamalıq və ginekologiya kafedrasının müdiri, professor Leyla Rzaquliyeva rəy veriblər.**

II Mamalıq və ginekologiya kafedrasının müdiri, ə.e.x, t.e.d, professor Hicran Bağırovanın bilavasitə rəhbərliyi və elmi redaktorluğu ilə ərsəyə gələn kitab öz müasirliyi və aktuallığı ilə seçilir.

Təbabətin ən mühüm sahələrindən olan mamalığın əsasları bəşəriyyətin yarandığı ilk çağlarda meydana gəlib. Bu sahə öz qədimliyi ilə elmi və praktik cəhətdən həddindən artıq zənginləşmiş, şaxələnmiş və əhatələnmişdir. Mamalıq elminin digər elmlərə inteqrasiya etməsi hamiləliyin və doğuşların müxtəlif ağırlaşmalarının müasir diaqnostika, müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanmasına səbəb olub.

Kitabda hamilə qadın orqanizmində baş verən fizioloji proseslər, hamiləlik və zahılıq dövrlərinin gigiyenası, hamilə qadınların doğuşa fiziki və psixi hazırlığı, doğuşa yardımın və mamalıq əməliyyatlarının texnika və taktikası geniş şərh olunub. Burada, həmçinin hamiləliyin erkən diaqnostikasının müasir üsullarının, ana bətnində dölün vəziyyətinin və ona təsir edən amillərin şərhinə geniş yer verilib.

Dərslikdə dölün bətndaxili inkişaf anatomiyaları, yenidoğulmuşlarda rast gəlinən anomaliya və irsi xəstəliklər haqqında da məlumatlar öz əksini tapıb. Müəlliflər bildirir ki, kitabda əvvəlki nəşrlərdən fərqli olaraq ölkə patologiyasının xüsusiyyətləri nəzərə alınıb, bətndaxili inkişaf anomaliyalarının və irsi xəstəliklərin Azərbaycanda daha geniş yayılmış formalarının şərhinə xüsusi diqqət yetirilib.

Qeyd olunur ki, Azərbaycan dilində mamalıq fənni üzrə dərslik və dərs vəsaitləri olduqca azdır və adıçəkilən kitab bu sahədə çalışanlar üçün çox faydalı olacaq. Dərslik Azərbaycan Tibb Universitetinin tələbələrinə mamalıq fənni üzrə lazımi bilikləri toplamaqda yardım edəcək, ümumi praktik həkimlər isə gündəlik fəaliyyətlərində bu kitabdan yararlanacaqlar.

Məlumat üçün bildirək ki, "Mamalıq" dərsliyi ATU-nun Böyük Elmi Şurasının qərarına əsasən çap edilib. Universitetin tədris proqramı əsasında nəşr olunan bu elmi-praktik monoqrafiya indiyədək ölkəmizdə mamalıq-ginekologiyaya dair geniş mənada yazılan ilk kitabdır. Kitabdan ölkəmizdə fəaliyyət göstərən digər universitetlərin tibb fakültələrinin tələbələri, eləcə də rezidentlər, praktik həkimlər, elmi işçilər və fənnin tədrisi ilə məşğul olan professor-müəllim heyəti, həmçinin tədqiqatçılar da istifadə edə bilərlər.




**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Patoloji anatomiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Rasim Niftalıyev vaxtsız vəfat edib.**

# Patoloji anatomiya kafedrasının dosenti dünyasını dəyişib



Rasim Niftalı oğlu Niftalıyev 1965-ci il martın 4-də Füzuli rayonunda anadan olub. 1982-ci ildə Füzuli şəhər 4 saylı orta məktəbində təhsilini başa vuran R.Niftalıyev N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Sanitariya-gigiyena fakültəsinə daxil olub, 1989-cu ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək həkim-patoloqanatom ixtisasına yiyələnib. 1991-ci ildə ATU-nun Patoloji anatomiya kafedrasında baş laborant, sonra assistent vəzifəsində çalışıb. O 1996-cı ildə namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsini alıb və 2005-ci ildə həmin kafedranın baş müəllimi seçilib. 2012-ci ildən kafedranın dosenti vəzifəsində işləyib.

R.Niftalıyev işlədiyi müddət ərzində özünü ixtisaslaşmış mütəxəssis, yaradıcı elmi işçi, praktik pedaqoq kimi göstərib. O, tədris prosesi ilə yanaşı, həm də patoloqanatom kimi də yüksək səviyyədə və peşəkarlıqla patoloji müayinələr həyata kecirib.

Rasim müəllim istər kafedranın, istərsə də universitetin ictimai-siyasi həyatında daim fəallıq göstərib və keçirilən mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edib. Universitetdə çalışdığı müddətdə kafedranın əməkdaşları və tələbə kollektivinin böyük hörmətini qazanıb.

Patoloji anatomiya kafedrasının kollektivi bacarıqlı pedaqoq, gözəl insan Rasim Niftalı oğlu Niftalıyevin vaxtsız vəfatından kədərlənir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## Allah rəhmət eləsin!

Tibbi mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları kafedranın professoru Mehman Əliyevə qardaşı

**Asif Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın dosenti Kamran Babayevə xalası

**Şövkət Qarayevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Fizioterapiya və tibbi reabilitasiya, Sitologiya, embriologiya və histologiya kafedralarının əməkdaşları və dosent İbrahim Əhmədov Bioloji kimya kafedrasının assisenti Nərmin Bayramovaya atası

**Şahin Bayramovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi olmuş Naidə Niyazovaya anası

**Xalidə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın müəllimi Arzu Mirzəyevaya atası

**Ağanəhmətin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başlağlığı verirlər.

---

Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları kafedranın assistenti

**Səxavət Quliyevin**

faciəli vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başlağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0002
Sayı 800